**Cəmilə Əzizova**
**dissertant**
**Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu**
**E-mail: azizlijamila@yahoo.com**

## Bədii ədəbiyyat və ədəbiyyatşünaslıq üzrə elektron informasiya bazalarının yaradılması

**Xülasə:** Bədii ədəbiyyat və ədəbiyyatşünaslıq üzrə elektron informasiya bazalarının yaradılması düzgün planlaşdırmadan, yəni, proqramın düzgün seçilməsindən başlayır. Ümumiyyətlə, elektron kitabxana daim yenilənmə, inkişaf və profilaktik iş tələb edir. Bu məqsədlə kitabxanaya bütün funksional istiqamətlərdə peşəkar mutəxəssislər-təsvirin işlənməsi, mətnin rəqəmsallaşdırılması uzrə mütəxəssis kompüter şəbəkəsinin ekspluatasiyası üçün sistem administratoru və proqramlaşdırıcılar, metaverilənlərin yaradılması və daxil edilməsi ücün kataloqlaşdırıcılar, bir neçə layihə rəhbəri, eyni zamanda istifadəcilərin kolleksiyaya çıxışına kömək və onlarla iş məqsədilə xidmət şöbəsi işçiləri tələb olunur. Məqalədə bədii ədəbiyyat və ədəbiyyatşünaslıq üzrə elektron informasiya bazalarının yaradılmasının əsas müddəaları öz əksini tapmışdır.

**Açar sözlər:** elektron kitabxana, adi kitabxana, elektron sənədlər, internetdən istifadə, onlayn kataloq, informasiya bazaları, müasir informasiya, ədəbiyyatşünaslıq sahəsi, elektron məlumat bazası.

Müasir dövrdə kitabxanaların qazanacağı uğurlar yeni informasiya kommunikasiya texnologiyalarının tətbiqi səviyyəsindən çox asılıdır. Müasir dövrün tələblərinə uyğun olaraq kitabxanalarda elektron kataloqun, elektron kitabxananın təşkili, məlumat bazalarının yaradılması, oxuculara virtual xidmətin təqdim edilməsi kitabxanaların qarşısında duran prioritet məsələlərdəndir. Kitabxanaların kompüterləşdirilməsi, yeni kitabxana-informasiya texnologiyalarının tətbiqi kitabxanalarda xidmətin yüksək inkişaf səviyyəsini təmin edir. Eyni zamanda kitabxanalarda müasir informasiya-kommunikasiya texnologiyalarından, internet informasiya resurslarından istifadə olunması, elektron kataloq və elektron kitabxana, elektron məlumat bazalarının yaradılması dünya kitabxanaları ilə elmi kommunikasiyaların inkişafına təkan verəcəkdir. Bu sahədə ilkin görüləcək iş kitabxanaların ən yeni kompüter-telekommunikasiya, texnikası ilə təchiz olunması, bu işdə çalışa biləcək yüksək ixtisaslı kadrların hazırlanmasıdır. Bu, kitabxanaların öz

oxucularına məsafədən asılı olmayaraq, 24 saat müddətində onlayn xidməti göstərən informasiya müəssisələri kimi fəaliyyətinə imkan verəcəkdir.

Kitabxana proseslərinin kompüterləşdirilməsinin, əsasən aşağıdakı istiqamətlərdə həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

I. Kitabxanaların ənənəvi iş üsullarının kompüterləşdirilməsi;
II. Elektron kataloqun yaradılması;
III. Elektron kitabxanaların yaradılması;
IV. Kitabxanalarda elektron sənəd mübadiləsi xidmətinin təşkil edilməsi;
V. Korporativ kitabxana – informasiya şəbəkələrinin yaradılması [12,46 s.].

“Kitabxanaların ənənəvi iş üsullarının kompüterləşdirilməsi” istiqaməti üzrə ən vacib məsələlərdən biri ənənəvi proseslərinin (kataloqlaşdırma, komplektləşdirmə, xidmət və s.) kompüterləşdirilməsindən ibarətdir. Bu prosesdən sonra kitabxanaya daxil olan yeni kitablar ilk növbədə kompüterdə öz əksini tapmalı, katroçkalar kompüterdə yazılmalı və çoxaldılmalıdır. Bununla ağır və yorucu kitabxanaçı əməyini asanlaşdırmaq, eləcə də kitabxanada görülən bir sıra işlərin təkrar yerinə yetirilməsinin qarşısını almaq, əmək məhsuldarlığını və effektivliyini keyfiyyət və kəmiyyət baxımından artırmaq, kitabxana fondunun etibarlı surətdə mühafizəsini və bu fonddan daha geniş oxucu kontingentinin səmərəli istifadəsini təmin etmək olar.

İkinci vacib istiqamət elektron kataloqun yaradılmasıdır. Elektron kataloq kitabxana fondunun güzgüsüdür. Onun ümumi modulunu aşağıdakı kimi izah etmək olar:

1. Elektron kataloq-maşınla oxunan formada reallaşdırılan kitabxana kataloqudur.
2. Elektron kataloq-kataloq funksiyalarını icra edən biblioqrafik məlumat bazasıdır.
3. Elektron kataloq-avtomatlaşdırılmış kitabxana-informasiya sistemi və ya onun altsistemidir.
4. Elektron kataloq - online kataloqdur.

Kitabxanaların xidmət sisteminin keyfiyyətinin daha da yaxşılaşdırılması məqsədilə elektron kataloqların yaradılmasına ehtiyac duyulur. Çünki hazırki informasiya çoxluğunda oxucuların istədikləri məlumatı əldə edə bilmələri üçün elektron kataloqun yaradılmasının əhəmiyyəti çox böyükdür. Üçüncü istiqamət elektron kitabxanaların yaradılmasıdır. Bədii ədəbiyyat və ədəbiyyatşünaslıq sahəsinin oxucuları da daxil olmaqla müsir oxucular ən operativ informasiyanı əldə etmək üçün internetdən istifadəni əvəzsiz sayırlar. Belə oxucuların marağını elektron kitabxanalar daha çox təmin edir. İnkişaf etmiş ölkələrdə kitabxanaların avtomatlaşdırılmış sistemlə işləməsi təcrübəsinin uğurları respublikanın kitabxanaları üçün də nümunəyə çevrilməlidir. Elektron

kitabxanalar informasiyalaşdırılmış cəmiyyət quruculuğunun sosial sifarişidir. Elektron kitabxanalar oxuculara informasiya xidmətinin kompüterləşdirilməsinin nəticəsi olub, ənənəvi kitabxanalara alternativ bir qurum deyil, yalnız bir xidmət növüdür. Elektron kitabxana ümumi istifadə ucun açıq olan lokal və uzaq məsafədə yerləşən paylanmış informasiya resurslarına malik olur. Lokal (internetə çıxışı olmayan kitabxananın daxili internet şəbəkəsində oxunan ədəbiyyat) resurslar elektron kitabxananın web serverlərində toplanmış, kitabxana fondunda yerləşən ədəbiyyatın elektron nüsxələrindən və kitabxana tərəfindən ödənişli və ya mübadilə üsulu ilə alınmış elektron sənəd və nəşr toplusundan ibarətdir. Elektron kitabxana müasir web texnologiyası əsasında fəaliyyət göstərir. Müasir dövrdə oxucular elektron kitabxanalar sayəsində kitabxanaların informasiya ehtiyatlarından istifadə edir. Elektron kitabxanalar uzaq məsafədən oxuculara daha dolğun informasiya xidməti göstərərək, bu xidmətin zaman və məkandan asılılığına son qoyur. Ənənəvi kitabxanalarda informasiya xidməti yalnız kitabxananın iş saatı müddətində və məhdud sayda oxuculara göstərildiyi halda, elektron kitabxanalar 24 saat müddətində fəaliyyət göstərir və dünyanın istənilən nöqtəsində yerləşən qeyri-məhdud sayda oxuculara eyni zamanda xidmət edir. Elektron kitabxanalar rahat və sərfəli xidmət növüdür. Müasir şəraitdə respublikamızın bəzi kitabxanalarında bu xidmətin təşkili qısa müddətə və az xərc sərf etməklə böyük informasiya ehtiyatlarının oxucuların istifadəsinə verilməsini və oxucu tələbatının operativ yerinə yetirilməsini təmin edir.

Elektron kitabxanaların yaradılması düzgün planlaşdırmadan, yəni, proqramın düzgün seçilməsindən başlayır. Elektron kitabxana daim yenilənmə, inkişaf və profilaktik iş tələb edir. Bu məqsədlə kitabxanaya bütün funksional istiqamətlərdə peşəkar mütəxəssislər-təsvirin işlənməsi, mətnin rəqəmsallaşdırılması üzrə mütəxəssis kompüter şəbəkəsinin ekspluatasiyası üçün sistem administratoru və proqramlaşdırıcılar, metaverilənlərin yaradılması və daxil edilməsi ücün kataloqlaşdırıcılar, bir neçə layihə rəhbəri, eyni zamanda istifadəçilərin kolleksiyaya çıxışına kömək və onlarla iş məqsədilə xidmət şöbəsi işçiləri tələb olunur. Elektron kitabxanadan istifadə cox sadədir, ondan istifadə üçün oxucudan internetə qoşulmuş kompüter və İnternetin www xidmətindən istifadə vərdişi tələb olunur. Bədii ədəbiyyat və ədəbiyyatşünaslıq sahəsinin elektron kitabxanada əksini əyani şəkildə Milli kitabxananın elektron kitabxanası vasitəsilə göstərək. Əvvəlcə Milli kitabxananın www.anl.az saytına daxil oluruq, daha sonra açılan səhifənin sol tərəfindən elektron kitabxana linkini (keçidini) tıklayırıq və "Humanitar elmlər" şöbəsi açılır. Burada ədəbiyyat sistemli qaydada qruplaşdırılmışdır "Filologiya elmləri. Bədii ədəbiyyat" şöbəsini açdıqda burada tədqiqat apardığımız sahənin tanınmış şəxsiyyətlərinin əsərləri ilə "Daxili əlifba" ilə tanış olmaq olar. Eyni zamanda

burada Hacıbəyli Üzeyir, Hadi Məhəmməd, Köçərli Firudin bəy, Marağayi Zeynalabdin, Məmmədquluzadə Cəlil, Nərimanov Nəriman, Sabir Mirzə Ələkbər, Mirzə Əli Möcüzə aid məlumat bazalarının olduğunu görürük.

Milli Kitabxana hazırda real fəaliyyət göstərən müxtəlif funksional avtomatlaşdırılmış kitabxana sistemi VİRTUA proqramına malikdir. Kitabxana VTLS proqramının bütün modullarını almışdır. Administrator yarımsisteminin köməkliyi ilə mütəxəssislər avtomatlaşdırılmış idarəetmə sisteminin yeni və son versiyasının quraşdırma işlərini başa çatdırmışlar.

VTLS/VİRTUA sisteminin əsas üstün cəhətləri aşağıdakılardır:

1. VTLS/VİRTUA proqramı başqa sistemlərlə asan informasiya mübadiləsini həyata keçirməyə imkan yaradır;

2. Bölgələrdə elektron kataloq yaratmaq üçün əlavə sistem olmadan İnternet vasitəsilə Milli Kitabxananın sisteminə qoşularaq öz elektron kataloqunu yarada bilərlər.

Bu ilk növbədə kataloqlaşdırma ilə məşğul olan kataloqçulara vaxta qənaət etməyə imkan verir. Onlar sistem vasitəsilə Milli Kitabxananın Elektron kataloquna daxil olaraq lazım olan ədəbiyyatın hazır təsvirini alaraq, oraya sadəcə sənədin olduğu yerin ünvanını və mühafizə şifrəsini, kütləvi kitabxanalar üçün KBT indekslərini əlavə edərək özlərinin Elektron kataloqlarını yaradırlar. Bu məqsədlə tender elan olunaraq müvafiq təşkilat müəyyənləşdirilmiş və ULTRA şirkəti ilə bu işlərin görülməsi barədə müqavilə imzalanmışdır. Artıq bu günədək server otağı, data mərkəzinin yaradılması işi başa çatdırılmış və avadanlıqlar quraşdırılmışdır. Eyni zamanda xüsusi proqramlar işlənib hazırlanmışdır və onların işə salınması prosesi gedir. Mədəniyyət və Turizm Nazirliyinin Milli Kitabxana ilə birgə layihəsi olan işlər davam etdirilir və bir neçə pilot rayon, şəhər kitabxanaları seçilərək, onların bazası əsasında mərkəzləşdirilmiş avtomatlaşdırılmış idarəetmə sistemi qurulur. Bununla da nazirliyin kitabxanaları üzrə müvafiq portalın yaradılması, bütün kitabxanaların elektron kataloqunun tərtibi işləri və elektron məlumat bazalarının, elektron kitabxananın yaradılması prosesləri Milli Kitabxananın nəzdindəki idarəetmə mərkəzindən idarə olunacaqdır. Elektron kataloqun formalaşdırılmasına dəstək şöbəsi 2011-ci ildə kitabxanaya daxil olan Azərbaycan və rus dillərində olan 8519 adda yeni ədəbiyyatı, ümumilikdə isə 24784 adda (20196 adda Azərbaycan, 4588 adda isə rus dilində) ədəbiyyatın biblioqrafik yazısını yaradaraq elektron kataloqun məlumat bazasına daxil etmişdir. Analitik elektron məlumat bazasının təşkili şöbəsində işlər avtomatlaşdırılmış kitabxana proqramına uyğun olaraq aparılır. Şöbə il ərzində respublikamıza dair və ümumi xarakterli məqalələrin Azərbaycan və rus dilində 38 168 (29 289 Azərbaycan dilində, 8879 rus dilində) analitik-biblioqrafik yazısını elektron katoloqun analitik məlumat bazasına daxil etmişdir. 27 140

(19 426) Azərbaycan dilində, 7714 rus dilində) Azərbaycan və rus dilində məqalələrin tam elektron mətni kitabxananın saytına daxil edilmişdir.

Elektron Resursların Yaradılması şöbəsi qlobal (http://www.anl.az ) və local (http://web.anl.az/) serverlərdə aşağıdakı işləri görmüşdür: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunan klassik və müasir Azərbaycan ədəbiyyatı, dünya ədəbiyyatı silsiləsindən əsərlərin kitabxanada olan bütün nəşrlərinin elektron versiyasının hazırlanması işi başa çatmışdır. Müəllif hüquqlarının qorunması qanunlarını rəhbər tutaraq kitabların mühafizəsini təmin etmək, informasiya qıtlığını aradan qaldırmaq məqsədi ilə Milli Kitabxananın fondunda olan nəşrlərin - Qədim və nadir ədəbiyyat nümunələrinin (2879 kitab), müasir ədəbiyyat nümunələrinin və klassiklərin ölkədə və ya xaricdə nəşr olunmuş əsərlərinin rus və ingilis dilində nəşrlərinin (1570 kitab), kitabxananın nəşirlərinin (48 kitab) və müəlliflərin öz ərizələri ilə birgə elektron daşıyıcılarda təqdim etdikləri kitabların (178 kitab) əsasında işlənilib hazırlanan elektron resursları saytların elektron kitabxanasında müvafiq dildə, müvafiq bölmələrdə, həmçinin əlifba üzrə yaradılmış səhifələrdə yerləşdirmişdir.

Son dövrlərdə şöbədə Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramını rəhbər tuturaq aşağıdakı Elektron Məlumat Bazaları yaradılıb və ya yenidən işlənilərək serverdə yerləşdirilib: Qara Qarayev, Xocalı (yenidən işlənilmiş), Nəriman Həsənzadə, 31 Mart (yenidən işlənilmiş), Mehriban xanım Əliyeva, Nizami Gəncəvi, Abuzər Xələfov, Nəsir İmanquliyev. Bu bazalarda əlavə olaraq 372 məqalənin tam mətninin elektron resursu hazırlanaraq yerləşdirilmişdir. 67 adda qəzet və 46 adda jurnalların elektron versiyalarının siyahısı internet səhifəsində, tam mətni isə internet səhifəsinin "Dövrü və ardı davam edən nəşrlərin elektron məlumat bazası"nda yerləşdirilmişdir.

Nadir kitablar fonduna Azərbaycan dilində 8, ərəb dilində 1, rus dilində 96 nüsxə kitab daxil olmuşdur. 445 nüsxə qiymətli və oxucular tərəfindən çox soruşulan ədəbiyyatın surəti çəkilib Elektron kitabxanada yerləşdirilmişdir. Jurnal fondunda az soruşulan köhnə illəri əhatə edən 448 adda 45 938 nüsxə jurnal seçilib Depozitar ədəbiyyat şöbəsinə verilmişdir. Elektron dissertasiya fondunun təşkili və ondan istifadə şöbəsində 3610 tammətnli elektron resurs var. Bunlardan 1048 nüsxəsi aftoreferat, 2562 nüsxəsi isə dissertasiyadır. İl ərzində Rusiya Dövlət Kitabxanasının dissertasiya və avtoreferatlarının tammətnli elektron bazasından və Azərbaycanda müdafiə olunmuş dissertasiyaların tammətnli eletron məlumat bazasından 623 oxucuya virtual xidmət olunub.

Çap məhsullarının qeydiyyatı və Milli biblioqrafiya şöbəsi (Kitab Palatası) tərəfindən "Birillik Azərbaycan Kitabiyyatı"nın respublikada dərc olunmuş kitabları əhatə edən 1996, 1997 və 2009-cu illərə dair buraxılışları hazırlanmış, "Yeni kitablar" göstəricisinin 2010-cu ilin IV buraxılışı, 2011-ci ilin I, II buraxılışları çap olunmuş, 2011-ci ilin III və IV buraxılışları çapa hazırlanmuşdır. Şübhəsiz ki, həmin mənbələr içərisində bədii ədəbiyyat və ədəbiyyatşünaslıq üzrə ədəbiyyat da öz əksini tapmışdır.

«AMEA Mərkəzi Elmi Kitabxanasında da məlumat bazalarının yaradılması istiqamətində işlər davam etdirilir. XXI əsrin ilk illərindən başlayaraq «AMEA Mərkəzi Elmi Kitabxanası elmi-tədqiqat müəssisələri kitabxana şəbəkəsinin Avtomatlaşdırılmış İnteqrasiyalı Kitabxana Sisteminin yaradılması» istiqaməti üzrə fəaliyyət göstərir. Bundan əlavə, Kitabxananın elektron kataloqunun İnternet istifadəçilərinə təqdim edilməsi məqsədi ilə "VEB-İRBİS" proqramının sınaq variantı internetə buraxılmışdır. Hazırda "VEB-İRBİS" proqram təminatının interfeysinin Azərbaycan dilinə tərcümə edilməsi istiqamətində Elmi Kitabxanada iş davam etdirilir.

2010-cu ildə "Mərkəzi Elmi Kitabxananın Veb-səhifəsinin təkmilləşdirilməsi" üzrə iş davam etdirilmişdir. Saytın mütəmadi olaraq yenilənməsi, bütün sənədlərin, məlumatların elektron formada serverə (hostinq) yerləşdirilməsi davam etdirilib. Cari ilin plan və hesabatları, yeni ədəbiyyatın informasiya bülletenləri, "Elmi Əsərlər"in yeni buraxılışı, Kitabxananın digər nəşrləri, keçirilən tədbir və konfranslar haqqında məlumatlar sayta yerləşdirilmişdir.

Bədii ədəbiyyat və ədəbiyyatşünaslıq üzrə məlumat bazalarının yaradılması istiqamətində iş Nizami adına ədəbiyyat İnstitutunun "İnformasiya və biblioqrafiya" şöbəsində də davam edir. Ədəbiyyat İnstitutunun elmi fəaliyyətinin bütün sahələrinin operativ informasiya təminatını təmin edən tədbirlər kompleksi həyata keçirilməkdədir. İlk növbədə, əsas diqqət "Azərbaycan ədəbiyyatşünaslığının biblioqrafiyası"nın elektron məlumat bazası üzərində işlərin aparılmasına yönəldilmişdir. Bu baza 1976-cı ildən bu günə qədər ədəbiyyatşünaslıq sahəsində nəşr edilmiş elmi əsərləri və onların müəllifləri haqqında materialları əhatə edəcəkdir. Hazırda həmin bazaya görkəmli ədəbiyyatşünas alimlərdən Həmid Araslı, Kamal Talıbzadə, Yaşar Qarayev, Azadə Rüstəmova və b. eyni zamanda Nizami adına Ədəbiyyat İnstitutunun «Elmi əsərləri»nin biblioqrafiyaları daxil edilmişdir.

İnformasiya kommunikasiya texnologiyalarının tətbiq edilməsi kitabxanaların əsas funksiyasının, strukturunun, təyinatının dəyişməsinə gətirib çıxarır, onları çoxfunksiyalı bir təsisata çevirir. Müasir kommunikasiya texnologiyalarının tətbiqi nəticəsində modernləşən bu təsisat həm kitabxana, həm informasiya mərkəzi, həm mədəniyyət mərkəzi, həm də təhsil mərkəzi

funksiyasını özündə birləşdirir. Bu çoxşaxəli fəaliyyət sahəsi cəmiyyətdə onun ictimai əhəmiyyətini getdikcə artırır. Məhz buna görə də kitabxanalara müasir informasiya texnologiyalarının tətbiq edilməsi son dərəcə vacib bir məsələdir. Bu işə başlamaq üçün fikrimizcə, respublikada fəaliyyət göstərən kitabxanaların monitorinqi aparılmalı, onların mövcud vəziyyəti, texniki təminatı, kadr potensialı öyrənilməlidir. Hansı kitabxanaların informasiya-kommunikasiya texnologiyaları ilə ilk növbədə təmin edilməsinin zəruri olduğu müəyyən edildikdən sonra bu proses mərhələlərlə həyata keçirilməlidir. Zəngin kitab fonduna malik olan böyük kitabxanaların hamısında müasir informasiya texnologiyaları, avtomatlaşdırılmış kitabxana sistemləri tətbiq edilməli, elektron kataloq, elektron resurslar yaradılmalıdır. Elektron resurslar yaradılarkən kitabxanaların profili əsas götürülməli, pərakəndəliyə, sistemsizliyə, səthiliyə yol verilməməlidir. Ölkənin siyasi, iqtisadi, mədəni həyatına, onun tarixinə, beynəlxalq əlaqələrinə, elmi potensialına, incəsənətinə, Dağlıq Qarabağ probleminə, Xocalı soyqırımına, diasporlarımıza aid müxtəlif dillərdə mükəmməl elektron resursların hazırlanıb lokal və qlobal şəbəkələrdə yerləşdirilməsi aparıcı kitabxanaların əsas vəzifələrindən biri olmalıdır. Kitabxanalar bu vəzifələrin yerinə yetirilməsi sahəsində artıq müəyyən işlər görmüşdür. Burada kitabxana proseslərinin əksəriyyəti avtomatlaşdırılmış, Avtomatlaşdırılmış Kitabxana Proqramı tətbiq edilmiş, mükəmməl elektron kataloq, prioritet sahələr üzrə bir neçə elektron resurs yaradılmışdır. Lokal şəbəkədə işləyən tammətnli verilənlər bazası oxucuların istifadəsinə verilmişdir və hazırda onun Web səhifəyə qoşulması üçün tədbirlər görülür. Kitabxanada sənədin elektron çatdırılması, məsafədən xidmət üsulu uğurla tətbiq edilir. Əlbəttə, günbəgün artan informasiya seli içərisindən lazım olanını seçib, sistemləşdirib təyinatı üzrə qruplaşdırmaq və arxivləşdirmək üçün təbii ki, kitabxanaçıdan da xüsusi səriştə, peşəkarlıq və operativlik tələb olunur. Kitabxanaların yeni kitablarla vaxtlı-vaxtında komplektləşdirilməsi, elektron nəşrlərin, elektron resursların, dövri nəşrlərin alınması və abunəsi işi də kitabxana fəaliyyətinin çox vacib sahəsidir. Kitabxananın fondu nə qədər zəngin olarsa, oxucunun, istifadəçinin sorğusuna və sifarişinə uyğun daha mükəmməl informasiya vermək olar. Buna görə də, ilk növbədə kitabxana fondunun fasiləsiz olaraq sənəd-informasiya təminatı məsələsi də həll edilməlidir. Fikrimizcə, bu gün hər bir kitabxana, dövlət başçısının respublikamızda informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə xüsusi önəm verməsinə rəğmən cəmiyyətin informasi-yalaşdırılması prosesində fəal yardımçı olmaq, çevik informasiya mərkəzinə çevrilmək vəzifəsini yerinə yetirmək üçün yollar axtarmalıdır. Çünki bu, zamanın tələbidir.

**Nəticə:** Elmi tədqiqat işini yekunlaşdıraraq belə bir nəticəyə gəlmək olar ki, bədii ədəbiyyat və ədəbiyyatşünaslıq sahəsi üzrə müstəqillik illərində nəşr

olunmuş çap əsərləri biblioqrafik resurs sayəsində bu gün də insanlara xidmət etməkdə davam edir. Minimum biblioqrafik biliklərə yiyələnmə ədəbiyyatla aparılan bütün işi olduqca səmərələşdirməyə imkan verir. Biblioqrafik resursdan istifadə etdikcə bu biliklər dərinləşir, genişlənir, müxtəlif informasiya mənbələrindən istifadə bacarığı yaranır, zəngin çap məhsulunun bütün informasiya imkanları açılır.

Təsadüfi deyil ki, bir çox məşhur alimlər, o cümlədən Azərbaycan alimləri biblioqrafik mənbələri yaxşı tanıyır, onlardan istifadə etmək bacarığını yüksək qiymətləndirir və bəzən özləri də biblioqrafik vəsaitlərin tərtibi ilə məşğul olurlar.

## Ədəbiyyat:

1. İsmayılova S.P.Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyatşünaslıq üzrə sənəd kütləsi biblioqrafiyalaşdırma obyekti kimi:Dərs vəsaiti. Bakı,2008, 63 s.
2. İnformasiya Texnologiyaları Nazirliyi. İnformasiya cəmiyyətinin 100 əsas anlayışı. Bakı, 2007.
3. İsmayılov X.İ. Azərbaycanda kitabxanaların metodik təminat sist-eminin inkişaf tarixi (1918-19200-cı illər):Monoqrafiya. Bakı, 2000, 415 s.
4. Əhmədova A.S.İnformasiya cəmiyyətinin qurulmasında informasiyalaş dırmanın rolu və dövlət siyasəti // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, s.166, № 3(27) 2009.
5. Quliyev T., Həsənov M. Elektron kataloqlar // Mədəni-maarif. – 2005. - № 2. – S. 42-45.
6. Vəzirova R. Elektron biblioqrafik məlumat bazası SBA-nın əsas tərkib hissəsidir // Kitabxanaşünaslıq və biblioqrafiya:elmi-nəzəri və təcrübi jurnal, 2007, № 2,S. 76-86.

## Создание электронно-информационных баз по художественной литературе и литературоведению

### Резюме

Завершая научно – исследовательскую работу, можно прийти к такому заключению, что печатные произведения, опубликованные в годы независимости в сфере художественной литературы и литературоведения, на сегоднящний день продолжают служить людям благодаря библиографическим ресурсам. Усвоение минимальных библиографических знаний создает возможность сделать всю работу крайне рациональной. По мере использования библиографических ресурсов эти знания углубляются, расширяются, возникают навыки

использования различных информационных источников, раскрываются все информационные возможности богатой печатной продукции.

Электронная библиотека является социальной потребностью информационного общества. Электронная библиотека, являясь результатом компьютеризации информационного обслуживания населения, выступает не альтернативной организацией традиционным библиотекам, а всего лишь одним из видов обслуживания. Электронная библиотека обладает локальными информационными ресурсами, предназначенными для общего пользования, и распределяет информационные ресурсы на расстоянии. Не случайно, что многие известные ученые, в том числе, ученые Азербайджана хорошо знакомы с библиографическими источниками, высоко оценивают умение пользоваться ими и иногда сами тоже занимаются составлением библиографических изданий.

**Ключевые слова:** электронная библитотека, обычная библиотека, электронные документы, использование интернета, онлайн каталог, информационные базы, современная информация, сфера литературоведения, электронная информационная база.

## Creation of electronic databases on fiction and literary criticism
## Summary

There is a need for qualification and inreach the librariy services, and making electronical catalogues readers. Now there is a great need for the peoples getting more information about all we need electronical libraries. The readers think that nothing can be used instead of internet for getting literary and modern literary informations. Electronic libraries supple the need of such readers more electronical libraries act in model of web. system an important ways of it is a modulation of electronic libraries. Electronic catalogues are an eye of electronic libraries.

Such libraries serve all the parts of the world at the same time for getting any information. Electronic libraries need constant and heard working. The usage of this libraries is easy and reader only need to have a phone connected to an internet and the use skills.

**Key words:** Electronical library, traditional library, electronic documents, the usage of internet, online catalogue, information bases, modern information, item of liberary, an electronical information base.